ƏLİ SULTANLI DÜHASI, ƏLİ SULTANLI FENOMENİ

İsgəndər ATİLLA (ORUCƏLİYEV)
ADPU-nun Azərbaycan və dünya ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru, əməkdar müəllim

(Əvvəli ötən sayımızda)

Ölməz alimin bu gözəl xüsusiyyətlərindən onun müasirləri, aspirant və tələbələri bu gün də yanarlıq duyğusu ilə danışırlar."

Azərbaycan Dövlət Universitetində Cəfər Xəndanın "XX əsr Azərbaycan ədəbiyyatı" kitabı müzakirə edilirdi. Kitab qatı sovet ideologiyasının təsiri altında yazılmışdı. Bu səbəbdən ciddi mübahisələrə səbəb olmuşdu. Kitabda "sosialist inqilabının qəddar düşməni", "inqilab qarşısında titrəyən" Əli bəy Hüseynzadə", "həyasız axund Əbütalib", "cızma-qaraçı Mehmet Akif Ərsoy", Məmməd Cəfər Cəfərov və b. "ifşa edilirdi". İclası professor Əli Sultanlı aparırdı. Mikayıl Rəfili iclasa yubanmışdı. İçəri girən kimi rəyasət heyətinə dəvət edildi. M.Rəfili "Siz işinizdə olun, mən burada, tələbələrin yanında oturacağam" dedi və elə də etdi. Əli Sultanlı "Professor, siz mütləq çıxış etməlisiniz" söylədi. Bir neçə alimin xahişindən sonra M.Rəfili yerindən qalxıb xitabət kürsüsünün arxasına keçdi.

- Heç biriniz məndən inciməyin, - deyə sözə başladı. – Hamımızın məqsədi eynidir: Ədəbiyyatımızın mükəmməl tarixini yaratmaq! Ədəbiyyatı yaradanların hamısı dahi olmur. Sənin yeni kitabını hələ tam oxumamışam, Cəfər. Gözdən keçirmişəm, təəssüf ki, əvvəlki kitablarında müşahidə etdikləri ideyillər. Onlar böyük demokrat şairlər, ədiblərdir. Sənin ədəbi şəxsiyyətlərinin hamısı "böyük şair", "böyük nasir", "böyük drama-turq"dur. Əcəba, bu millətin kiçik, orta səviyyəli yazıçısı olmayıbmı?..

Mən görkəmli alimimiz Mikayıl Rəfilinin çıxışını təsadüfən xatırlamıram. Onun toxunduğu məsələ bu gün dünənkindən də müasir və aktuallır. Bu gün Azərbaycanda kiçik, orta səviyyəli yazıçıları dahi hesab edənlər çoxdur. Şair və yazıçılar haqqında elmi fikirlərdən daha çox, tost deyənlər də az deyildir. Mən ali məktəblərin bəzi kafedralarında dissertasiyaların müzakirəsi zamanı bu halı dəfələrlə müşahidə etmişəm və edirəm. Həmkarlar, boş-boş tərifləri elmimizi inkişaf etdirmək olmaz!

İclasda prinsipial mövqe nümayiş edirən Əli Sultanlı etikanı gözləməklə, həqiqəti pərdələməməklə M.Rəfiliyə deyir: "Professor, sizi danışdırmasaydıq, bizə nə qədər mətləblər qaranlıq qalardı. Təkcə döyüş yox, elm də cəsarət, hünər tələb edir..."

Budur Əli Sultanlı prinsipiallığı, onun elmə verdiyi qiymət, alim-vətəndaş mövqeyi. – Quyuya su tökməklə quyu dolmadığı kimi, elmdə boş-boş tərifləri yol vermək heç bir şeyə nail olmaq olmaz – mənim prinsipial mövqeyim də belədir. Elmə qarşı tələbkar və məsuliyyətli olmaq hər bir müəllim və alimin vicdani borcudur.

Abbas Zamanov Əli Sultanlının ali məktəblər üçün hazırladığı və çap etdirdiyi dərsliklərdən danışarkən deyərdi: "Bu əsərlərin təkcə dərslik kimi deyil, geniş oxucu kütlələrini dünya ədəbiyyatının inciləri ilə tanış etmək üçün də mühüm əhəmiyyəti vardır. Bunlardan əlavə, Əli Sultanlı müxtəlif zamanlarda Gete, Şiller, Heyne, Rollan, Russo, Molyer, Hüqo, Aristofan, Bokkaçio, İbsen və s. haqqında ayrı-ayrı kitablar və jurnal məqalələri nəşr etdirmiş, beləliklə, Azərbaycan oxucularını dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığı ilə tanış etmək sahəsində səmərəli iş görmüşdür."

Əli Sultanlı əsərlərini yazarkən həm Azərbaycan, həm də dünya ədəbi-nəzəri fikrinin nailiyyətlərindən, dünya ədəbiyyatşünaslığında mövcud olan elmi araşdırmalardan bəhrələnirdi. Onun bu sahədəki araşdırmaları və söylədiyi fikirlər, Zaman Əsgərli demişkən, tam yeni fikirlər idi, Azərbaycan ədəbiyyatşünaslığının nailiyyətlərini və milli antikşünaslığın bünövrəsini və möhkəm dayaq sütununu təşkil edirdi. Yüksək peşəkarlıq və novatorluq Əli Sultanlının elmi yaradıcılığı üçün çox səciyyəvi idi. Araşdırmaları bir Azərbaycan alimi və mütəxəssisinin Qərb ədəbiyyatına baxışı olsa da, onların hamısı metodoloji baxımdan marksist ədəbiyyatşünaslığın prinsipləri əsasında yazılsa da, şərhlər elmi, obyektiv həqiqətin aşkarlanmasına xidmət edir.

Əli Sultanlı və "Kitabi-Dədəm Qorqud" eposu. Əli Sultanlı və Azərbaycan dramaturgiyası haqqında bir neçə söz söyləməsəm qəbahət olar. "Kitabi-Dədəm Qorqud" eposu haqqında söz söyləmək qadağan olunduğu bir zamanda dastan haqqında məqalə yazmaq alimdən əsl cəsarət tələb edirdi. Əli Sultanlı cəsarətli alim idi. Sovet hökumətinin antitürk və şovinist siyasəti və ideologiyasının hakim olduğu bir zamanda o, 1946-cı ildə "Dədə Qorqud və yunan eposları" kitabçasını, "Dədə Qorqud" dastanları haqqında qeydlər" məqaləsini ADU-nun elmi əsərlərində çap etdirdi. Beləliklə, Azərbaycanda eposun ilk görkəmli tədqiqatçılarından biri, tipoloji baxımdan onu yunan eposları ilə müqayisəli şəkildə tədqiq edən alimlərdən birincisi oldu. Eposun ilkin təşəkkülü və formalaşması haqqında diqqətəlayiq elmi nəticələrə gəldi. Belə bir fikir irəli sürdü: "Dastanın yaranması, mövcudiyyəti və cilalanması üç amillə bağlıdır. Onlardan birincisi Dədə Qorqud, ikincisi ozanlar, üçüncüsü katiblərdir. Dastan kollektiv bədii təfəkkürün məhsulu sayıla bilər. Orada yüzə qədər ərəb və fars sözləri işlənib. Çox güman ki, "bunlar dastana islami dən geyindirmək niyyəti gündən sonrakı katiblərin əlavələridir." Beləliklə, o, dolayısı ilə eposun ən qədim zamanlarda meydana gəldiyi fikrini irəli sürən qorqudşünaslardan biri oldu. Əli Sultanlı Dədə Qorqud obrazının mənşəyi, Qorqudun tarixi şəxsiyyət olub-olmamasına münasibət bildirdi. Belə bir nəticəyə gəldi: "Dədə Qorqudun şəxsiyyəti əsatirlər pərdəsi altında şübhələnmişdir. Hər halda bu dumanlı pərdə arxasında qədim Azərbaycan qəbilələrinin qüvvətli bir ozanı yaşamaqdadır."

O, dastanın nəzm, eyxsa nəsrlə yazılması məsələsinə də toxunmuşdur. Yeri gəlmişkən deyim ki, qorqudşünaslıqda bu məsələ bu gün aktual və mübahisəli olaraq qalır. Alim bu barədə belə yazır: "Dastan əsas etibarilə nəsrdir, lakin burada çoxlu şeir var. Dastanın nəsri şeirə yaxın, şeiri isə nəsrə yaxındır. Təhkiyənin bu şəklidə verilməsi daha çox xalq ədəbiyyatına xas cəhətdir. Bu üsul əsərin qədimliyini göstərdiyi kimi, onun xalq yaradıcılığından nəşət etdiyinə də yaxşı bir dəlildir."

Əli Sultanlının dastanla əlaqədar bu kimi nəzəri fikirlərini görkəmli alimlərimizdən Yavuz Axundlu, Vaqif Vəliyev, Tofiq Hacıyev, Paşa Əfəndiyev, İlhamə Əsgərova və b. yüksək qiymətləndirmişlər. İ.Əsgərova demişdir: "Professor Əli Sultanlının bu araşdırmaları mahiyyəti etibarilə dastanın bütün detalları ilə təhlilə cəlb olunması sahəsində ilk uğurlu addımlar sırasındadır. Heç təsadüfi deyil ki, sonralar bu istiqamət inkişaf etdirilmiş, bir sıra dəyərli tədqiqatlar ortaya çıxmışdır."

"Kitabi-Dədəm Qorqud" eposunun tədqiqi Əli Sultanlının elmi-pedaqoji yaradıcılığı və fəaliyyətində xüsusi yer tutur. Alim bu dastanı tədqiq edərkən yunan eposları ilə paralellər aparmış, tarixi-müqayisəli metoddan istifadə etmişdir. Antik yunan eposları, xüsusilə, Homerin "Odisseya" eposu ilə "Kitabi-Dədəm Qorqud" eposunun boylarının süjet və obrazlar aləmindən ətraflı bəhs etmişdir. Homerin "İliada"sındakı Terzit surətini, "Odisseya"da Odisseyin Polifemi məsxərəyə qoymasını Dəli Domrulun Əzraillə qarşılaşdığı komik epizodlarla əlaqələndirmişdir. Hesab etmişdir ki, epik ciddiliyin komikliklə əvəz olunduğu belə epizodları dünya xalqlarının eposlarında səciyyəvi bir hal kimi dəyərləndirmək lazımdır.

Yeri gəlmişkən, deməliyəm ki, antik yunan filosofu və estetiki Aristotel də öz əsərlərində həmin məsələlərə münasibət bildirmişdir. O, yunan "İliada"sını patetik "Odisseya"sını isə etik əsər hesab etmişdir. Diqqəti bu məsələyə cəlb edən Əli Sultanlının fikrinco, Azərbaycan türk eposu həm poetik, həm də etik mahiyyət daşıyır.

Dünya folklorunda, əsatir və dastanlarında geniş yer tutan süjetlərdən biri təbiətin qorxunc, qeyri-adi qüvvələrinə qarşı insanın mübarizəsidir. Əli Sultanlı bu cəhətdən "Kitabi-Dədəm Qorqud" eposundakı "Odisseya"dakı siklopları, xüsusən, Polifemi müqayisə etməsi və müəyyən nəticələrə gəlməsi maraqlıdır. Araşdırmalarında hər iki siklopa – Təpəgöz və polifemə məxsus olan oxşar və fərqli cəhətləri aşkara çıxarmışdır. Belə bir qənaətə gəlmişdir ki, Odissey daha çox şəxsi tamah naminə Polifemlə üz-üzə gəldiyi halda, Basat el-obanı xilas etmək üçün həyatını təhlükəyə ataraq, Təpəgözlə döyüşə girir və çətinliklə də olsa qələbə çalır. Təpəgözlə Polifemin müqayisəli tədqiq və təhlili əllinci illərdə Azərbaycan qorqudşünaslığı üçün yeni idi. Antik yunan eposlarını Azərbaycan türk eposu ilə tipoloji cəhətdən tədqiq və təhlil edən alim dolayısı ilə Dədə Qorqud boylarının daha qədimliyinə işarə vurur, oxucularda onların qədim türk bədii təfəkkürünün məhsulu olduğuna inam yaradırdı.

Böyük müəllim və alim Əli Sultanlının elmi-pedaqoji yaradıcılığını dramaturgiyasız təsəvvür etmək mümkünsüzdür. Onun Qərb, rus və Azərbaycan dramaturgiyası haqqında sanballı və konseptual fikirləri bu gün də öz elmi əhəmiyyətini itirməmişdir. Alimin Pedaqoji İnstitutda işlədiyi zaman yazdığı "Axundov və Molyer" əsəri (1938) müqayisəli ədəbiyyatşünaslığın ən gözəl nümunəsidir. O, əsərdə müqayisəli-tarixi metoddan istifadə edərək, hər iki dramaturqa layiq olduğu qiyməti verir. Onların yaşadığı tarixi dövrləri, ədəbi-mədəni mühiti, ictimai-siyasi məsələləri tipoloji baxımdan araşdırır; ədəbinəzəri görüşlərini, teatr və dramaturgiya haqqında fikirlərini şərh edir. Diqqəti Axundov və Molyerin komik gülüş yaratmaq məqsədilə istifadə etdikləri bədii vasitə və üsullara yönəldir. Qarpaqon və Hacı Qara, Hacı Nuru və Alssest, Molla İbrahim Xəlil və Tartüf surətlərinin tipoloji oxşarlıqlarını aşkarlayır. Professor Zaman Əsgərli haqlı olaraq alimin "Axundov və Molyer" əsərini ədəbiyyatşünaslığımızın 1930-cu illərdə qazandığı nailiyyət hesab edir.

Əli Sultanlının elmi maraq dairəsi hüdudsuz idi. Mən onun özündən sonra qoyub getdiyi irsə nəzər salarkən heyrətlənməyə bilmirəm. Gündüzünü gecəyə, gecəsini gündüzünə qatan alim yorulmadan çalışır, yazıb-yaradırdı. Qərb və rus ədəbiyyatını öz doğma milli ədəbiyyatı qədər sevir, maraq göstərirdi. Onun elmi-pedaqoji yaradıcılığında milli Azərbaycan ədəbiyyatı və dramaturgiyasının tədqiq və təhlili xüsusi yer tutur. Axundov başda olmaqla N.Vəzirov, R.Əfəndiyev, M.S.Ordubadi, H.Cavid, Ü.Hacıbəyli, C.Cabbarli, İ.Əfəndiyev və b. klassik və müasir dramaturqlar haqqında məqalələr yazıb çap etdirir. Onun sanballı əsərlərindən biri "Azərbaycan dramaturgiyasının inkişaf tarixi" əsəridir. "O, bu əsərlə ilk dəfə olaraq Azərbaycan dramaturgiyasının elmi tarixini yaratmışdır." (Z.Əsgərli) Alim burada xalq oyunları və xalq teatrına geniş yer vermiş, belə bir qənaətə gəlmişdir ki, xalq oyunları xalqın mənəvi həyatından doğan zəngin mədəni irsin diqqətəlayiq abidələrindəndir. Xalq oyunları mərasimlərdən doğaraq getdikcə "dünyəviləşmiş və yazılı dramaturgiyanın təməlini təşkil etmişdir."

Üç hissədən ("Xalq dramı və dini dramlar", "XIX əsrdə dramaturgiya", "XX əsrdə dramaturgiya") ibarət olan əsərdə dramaturgiyamızın inkişaf tarixi ardıcıl izlənilir. M.F.Axundov, N.Vəzirov, N.Nərimanov və C.Məmmədquluzadənin yaradıcılığına ayrıca yer verilir. Yüz illik bir dövrün (1850-1950) dramaturgiyasını tədqiqata cəlb edilir. Dini dramalar xalq dramaları ilə müqayisə edilərək belə bir nəticəyə gəlinir: "Xalq dramı xalqın öz içərisindən çıxmış xalq mərasimləri ilə bağlı isə, dini və tərigət dramları xaricdən gətirilmiş, yabançı mədəsəd daşıyır. Xalq dramı yazılı klassik dramaturgiyamıza qida vermişdirsə, klassik dramaturgiyada dini dramın heç bir təsirinə rast gəlmirik."

O, M.F.Axundovu milli dramaturgiyamızın banisi, N.Vəzirovu həm mülkədarlıq, həm də burjuaziya aləminin böyük tənqidçisi, N.Nərimanovu nadanlıq və xurafat zülmətini yox etmək uğrunda canından və başından keçən fədakar ədib. C.Məmmədquluzadəni M.F.Axundovdan sonra ədəbi təsir dairəsinin genişliyi, güləşünün kəskinliyi etibarilə ikinci böyük məzhəkəçi hesab etmişdir. Zaman Əsgərli yazır: "Azərbaycan dramaturgiyasının inkişafı tarixi" əsəri ayrı-ayrı icmallar və oçerklər şəklində yazılsa da, bu icmal və oçerklər möhkəm surətdə əlaqələndirilərək milli dramaturgiyanın bədii-estetik mənbələrini, təşəkkül tarixini və inkişaf yolunu izləyən, əvvəli, ortası və sonu olan bütöv bir monografiya halına gətirilmişdir."

Əli Sultanlı ilk dəfə bir əsrlik Azərbaycan dramaturgiyasının inkişaf tarixini sistemli şəkildə araşdırmış, hər bir dramaturqun yaradıcılığının özünəməxsus xüsusiyyətlərini aşkarlamış, bütövlükdə Azərbaycan dramaturgiyasının inkişaf tarixi haqqında oxucularda dolğun təsəvvür yaratmağa nail olmuşdur. Müəllif səpələnmiş və küll halında öyrənilməmiş materialları bir yerə toplamış, onları elmi tədqiqata cəlb etmişdir. Onun ədəni materialları tədqiq və təhlil etmək, dəyərləndirmək üsulu maraqlı və özünəməxsusdur. Ədəbi materiallara elmi yanaşma, obyektivlik, ümumiləşdirmə alimin tədqiq və təhlil üsulu üçün çox səciyyəvidir.

1950-ci illərdə sovet ədəbiyyatşünaslığında konfliktsizlik nəzəriyyəsi ortaya atıldı. Azərbaycan ədəbiyyatşünaslarından ilk dəfə Əli Sultanlı həmin nəzəriyyənin əleyhinə çıxdı. Həsəb etdi ki, konflikt drama əsərinin hərəkətverici yayı və şah dramasıdır. Konflikt dramatik əsərin estetik gözəlliyini nümayiş etdirən əlamətdir. Görkəmli sənətkarların dramatik əsərlərinin seçilməsi onların kəskin dramatik konflikt yaratmaları ilə əlaqədardır. S.Axundovun "Zərif tellər", C.Məcnunbəyovun "Böyük məhəbbət", M.Təhmasibin "Çiçəklənən arzular" pyeslərinin zəif çıxmasına səbəb müəlliflərin konfliktsizlik nəzəriyyəsinin təsiri altına düşmələridir. O, dramaturqları mövcud ictimai həyatın və cəmiyyətin ziddiyyətlərini əks etdirən kəskin dramatik konfliktli əsərlər yaratmağa çağırırdı.

Çoxları bilmir ki, Əli Sultanlı elmi-pedaqoji fəaliyyətlə bərabər, bədii yaradıcılıqla da məşğul olmuşdur. Əlinə fürsət düşən kimi, vaxt tapan kimi o, masanın arxasına keçir, onu düşündürən, maraqlandıran, narahat edən mövzuları qələmə alırdı.

(Davamı 7-ci səhifədə)

ƏLİ SULTANLI DÜHASI, ƏLİ SULTANLI FENOMENİ

(Əvvəli 5-ci səhifədə)

Alimin şəxsi arxivində onun bədii yaradıcılığına aid kifayət qədər əlyazmaları saxlanılır. O, bədii əsərlərinin bir hissəsi 1920-ci illərdə ərəb əlifbası ilə yazmışdır. "Ağlayıram", "Bir gül", "Bağışla", "Qərənfilim", "Qafqaz qızına", "İlk görüşümüz", "Unut" və s. şeirləri, "Qoşa dəyirman", "Batabat", "Cərrah", "Sən də acissən", "Qayanın eşqi" və s. hekayələri, "Sənəm piri" və "Çolpan" poemaları, "Ərtoğrul" və "Doktor Nadirşin" romanları onun qələminin məhsuludur. Şair "Bağışla" şeirini Azərbaycan və Türkiyə türkcəsində qələmə almışdır.

Qarşımda benim soldu bahar, susdu fərəhlər,
Hər şeyə qara yas pərdəli, hep aski baxışla.
Qəlbini anlatdı bana bin tür qüssə, kədər,
Əfv et, yetər olsun, gözəlim, şimdi bağışla.
Hicran o bizim qəlbimizin yurdunu tutsun,
Fəqət o riyakar, o gülər hiyləyə qonsun,
Nəhayət şu yazıq ömrümə tökdün də fusun,
Əfv et, yetər olsun, gözəlim, şimdi bağışla.

"Qocalmış bir çobanın harayı" şeirindən bir bəndə nəzər salaq.

Çoxdan bəri susdu neyim, a dağlar,
Qocaldım, büküldü belim, a dağlar,
Dinlə son sözümü deyim, a dağlar,
Ömrüm tükəndi boş bihudə haray.

Bu kövrək misralardan gənc şairin ürək çırpıntılarını, daşa dəymiş məhəbbətinin harayını eşitmək olar...

Bir neçə söz Hüseyn Cavid və Əli Sultanlı haqqında.

Əli Sultanlının 1971-ci ildə Abbas Zamanov və Yaşar Qarayevin tərtibilə "Məqalələr" adlı bir kitabı çap edilmişdir. Burada onun "Dədə Qorqud" dastanı haqqında qeydlər", "Hüseyn Cavidin faciələri", "Cəfər Cabbarlının dramaturgiyası", "M.S.Ordubadi bir dramaturq kimi", "Servantesin "Don Kixot" romanı", "Fridrix Şiller" və s. məqalə və oçerkləri toplanmışdır.

Məqalə və oçerklər iki başlıq altında qruplaşdırılmışdır: "Dramaturgiya və teatr", "Dünya ədəbi irsindən". Böyük alim və mütəfəkkir həmin məqalə və oçerkləri ölümündən bir neçə il əvvəl qələmə almışdır. Hüseyn Cavid haqqında məqaləni ona bəraət verildikdən sonra, 1959-cu ildə yazmışdır. 1956-cı ildə Cavidə bəraət verilərkən sevinənlər də, kədərlənənlər də olmuşdu. Sevinənlərdən biri Əli Sultanlı idi. O, bu şad xəbəri eşidərkən sanki quş kimi pərvazlanıb göydə uçmaq istəyirdi. İlahi, o necə də sevinirdi?!. Həmin xəbərdən kədərlənən, qəm dəryasına batan bir sovet şairi isə özünə deyinir, bir M.Hüseynə deyirdi: "Ona nə üçün bəraət verdilər?.."

Əli Sultanlı Cavid əsərlərini yazı masasının üstünə yığdı. 1950-ci illərdə dramaturq haqqında ən sanballı məqaləni o yazdı. Məqalə iki hissədən ibarətdir: "Hüseyn Cavidin faciələri" (1910-1920) və "Sovet dövründə Hüseyn Cavidin dramaturgiyası". 1956-cı ildə Cavidə bəraət verilsə də, "keçmiş xalq düşməni" haqqında həqiqəti yazmaq, onu "himayə" etmək o qədər də asan məsələ deyildi. Çünki sovet ideologiyası, sovet təbliğat maşını çoxdan öz işini görmüşdü. Cəmiyyətdə "xalq düşmənlərinə" qarşı nifrət hissi oyatmışdı. Köhnə sterotipləri aradan qaldırmaq üçün zamana ehtiyac var idi. Belə bir ideoloji basqı şəraitində Cavid haqqında söz söyləmək bəlkə də qəhrəmanlığa bərabər bir iş idi. Sovet ideologiyası və marksist-leninçi ədəbiyyatşünaslığın təsiri altında olan müəllif, təbiidir ki, müəyyən edilmiş çərçivədən kənara çıxa bilməzdi. Onun bəzi cümlələrinə nəzər salaq. "Cavid cəmiyyətin inkişaf qanunları ilə tanış olmadığı üçün ziddiyyətlərdən canını qurtara bilmirdi", "Cavidin vahid bir sistemə malik fəlsəfi konsepsiyası yox idi", "Cavid marksizmdən və yeni şəraitdə lenin təlimindən xəbərsizdi" və s. Bu kimi fikir və ittihamlar yalnız Əli Sultanlının deyil, sovet dövründə yaşayıb-yaradan sovet ədəbiyyatşünaslarının bir çoxu üçün xarakterik idi.

Cavidin 1913 və 1917-ci illərdə çap etdirmiş şeirlər məcmuəsi haqda məlumat verən müəllif, "Bakıda" şeirini, "Ana", "Maral", "Şeyx Sənan", "Uçurum", "Şeyda" və "İblis" pyeslərini ayrıca nəzərdən keçirmişdir. Onun "Füyuzat" məcmuəsində çap etdirdiyi "Hali-əsəf-iştimalımı təsvirdə bir ahi-məzlumanə" şeiri barədə məlumat vermişdir. Kitabın 105-ci səhifəsində dramaturqun yazdığı və sağlığında çap etdirdiyi 15 pyesinin (yazılma tarixini göstərməklə) adını bir-bir qeyd etmiş, bəzi əsərin yazılma tarixində yanlışlığa yol vermişdir. Məsələn, "Uçurum" faciəsinin 1905-ci ildə, "Şeyx Sənan"ın 1913-1914-cü illərdə qələmə aldığını göstərmişdir. Halbuki birinci əsər 1916-1917-ci illərdə, "Şeyx Sənan" 1914-1915-ci illərdə yazılmışdır. Əli Sultanlı dramaturqun 1910-1920-ci illərdə qələmə aldığı pyesləri geniş tədqiq və təhlil etmiş, həyatı və tərbiyəsi haqqında geniş məlumat vermişdir. "Şeyx Sənan" mənzum faciəsinin üzərində daha geniş araşdırmalar aparmışdır. Bilik, bacarıq və təfəkkür məsələsində Cavidi "poeziyamızın Hamleti" adlandırmışdır. "Şeyx Sənan" faciəsini təhlil edərkən, mövzunun müsəlman Şərq ədəbiyyatında yayılmasının, Cavidin həmin əfsanəyə göstərdiyi marağın səbəblərini aydınlaşdırmışdır. Hesab etmişdir ki, dramaturq əsər üzərində işlərkən "Şeyx Sənan" əfsanəsinin Tiflis variantından, Üzeyir Hacıbəylinin "Şeyx Sənan" operasından, Mehdi bəy Hacınskinin "Şeyx Sənan əfsanəsi" məqaləsi və İran sufi şairi Şeyx Fəridəddin Əttarın "Məcalis-üşşaq" və "Məntiq-üt-teyr" əsərlərindən bəhrələnmişdir. Cavid-şünaslıq tarixində H.Zeynallıdan sonra "Şeyx Sənan"ı bu istiqamətdə daha geniş tədqiq və təhlil edən Əli Sultanlı olmuşdur. Məqalədə ilk dəfə olaraq Şeyx Fəridəddin Əttarın "Məcalis-üşşaq" hekayəsinin mətnini vermişdir.

Sovet dövründə Cavidim daha çox mübahisələrə səbəb olan əsərləri sırasında "Uçurum", "İblis", "Peyğəmbər" və "Topal Teymur" əsərlərini ayrıca qeyd etmək lazımdır. Əli Sultanlının son iki əsərə münasibəti birmənalı olmamışdır. O yazırdı: "Peyğəmbər" dramı (1923) ictimai motivlərlə dolu olsa da, dramaturqun hələ də yanlış görüşlərdən ayrılmadığını göstərirdi. H.Cavid bu əsəri yazmamalı idi. Cəmiyyətimizdə bütün cəbhə boyu çürük islami əqidəyə qarşı amansız mübarizə getdiyi bir dövrdə islamiyyətin başçısı Məhəmməd peyğəmbəri dram qəhrəmanı edib diriltmək, müəllifin ideya ziddiyyətlərini daha da qabardıb üzə çıxardığı kimi azad olmuş bir xalqın mübariz məqsədlərinə qarşı qoymaq idi."

Bununla belə, 50-ci illərdə "Peyğəmbər" və "Topal Teymur" pyesləri haqqında daha maraqlı və dəyərli fikirləri Əli Sultanlı söyləmişdir. Qərb ədəbiyyatını gözəl bilən alim ədəbiyyatşünaslığımız tarixində "Peyğəmbər"i ilk dəfə tipoloji baxımdan Volterin "Məhəmməd peyğəmbər və yaxud fanatizm" əsərilə müqayisə etmişdir. Avropa alimlərindən Vayl, Şpinger, Nöldeke Krexl, Müller, Vollhauzen, Qrimi, Krımski və b. Məhəmməd peyğəmbər haqqında çap etdirdikləri əsərlər barəsində məlumat vermiş, Ərəbistanda baş verən hadisərlərə Hüseyn Cavidin münasibəti məsələsinə aydınlıq gətirmişdir. Onun fikrincə, dramaturq pyesdə tarixi hadisələrə romantik münasibət bəsləməklə bərabər, tarixi hadisələri obyektiv verməyə çalışmışdır.

Sovet hökuməti və sovet rəhbərlərinin islama təzyiq göstərdikləri, Quran oxumağı qadağan etdikləri bir zamanda pyesdəki tarixi obrazları geniş tədqiq və təhlil etmək müəllifdən əsl alimlik cəsarəti tələb edirdi. Əli Sultanlı çəkinmədən, qorxmadan buna gedir, Peyğəmbəri belə səciyyələndirirdi: "O (Peyğəmbər – İ.A.) [əsərdə] gah hüsni-mütləqə qovuşmaq istəyən bir panteist, idealistdir, gah əlində Quran əhalini dinə dəvət edən bir mübəlliq; gah bir dövlət başçısı kimi siyasət işlədən bir siyasiyyun, gah da əlində qılınc bütpərəstlərə meydan oxuyan bir sərkərdədir."

Əli Sultanlı "Topal Teymur" pyesindəki tarixi surətləri geniş təhlil etmiş, "Teymurnamə" müəllifləri və Əmir Teymur haqqında əsər yazmış Vamberi, Xristofer Marlo və onun "Böyük Tamerlan" faciəsi (1587) haqqında ilk dəfə məlumat vermiş, onları tipoloji baxımdan müqayisə etmişdir. Bəzi ədəbiyyatşünaslardan fərqli olaraq, o yazırdı: Cavid "Topal Teymur"da ədalətsiz müharibələri; insanların əmin-amanlığını pozan ordu toqquşmalarını pisləyir. Nə Topal Teymuru və adamlarını, nə də İldırımla ətrafını ideallaşdırmır. "O, tarixə sədaqət göstərərək, hadisələri əzəmi dərəcədə düzgün təsbit etməklə, onları nisbətən romantikləşdirmişdir. Dramda Topal Teymur tarixdə olduğu kimi həm mənfi, həm də müsbət sifətləri ilə canlandırılmışdır."

Böyük alimin bu fikrini "Topal Teymur" əsərini və onun baş qəhrəmanını təhrif edən, oxucuları çaşdıran araşdırıcılara cavabı kimi qəbul etmək olar.

Mən görkəmli alim, böyük müəllim, fenomenal şəxsiyyət olan Əli Sultanlının əsərlərindən çox şey öyrənmişəm. Qərb və xüsusilə antik yunan və Roma ədəbiyyatına aid əsərlərindən bilik almışam, təsirlənmişəm, ilhamlanmışam. Belə bir qüdrətli və mütəfəkkir alimə qibtə etmişəm. Mənim ömrüm uzunu minnətdar olduğum görkəmli alimlər sırasında Əli Sultanlı xüsusi yer tutur. Tədqiqatçılığın, elmi işin, elmi təfəkkürün, sanballı əsərlər yazmağın, vicdanlı və prinsipial alim olmağın nə olduğunu mən onun əsərlərindən öyrənmişəm. İstər universitetin tələbəsi olarkən, istərsə də müəllimlik edərkən bu böyük müəllim və alimin adı gələndə həmişə haqqında xoş sözlər eşitmişəm. Əli Sultanlıdan dərs alanlardan onun gözəl müəllim, gözəl alim, gözəl insan olduğunu eşitmişəm. Mənim özüm də yeri düşəndə onun haqqında ağızdolusu danışmışam və həmən məndən soruşublar: "Əli Sultanlı sənə dərs deyib?" Demişəm: təəssüf ki, deməyib.

1970-ci illərdə "Hüseyn Cavid yaradıcılığı Azərbaycan sovet tənqidi və ədəbiyyatşünaslığında" namizədlik dissertasiyası üzərində işlərkən onun tədqiqat üsulundan bəhrələnməyə çalışmışam. Dissertasiyada "Hüseyn Cavidin faciələri" və "Sovet dövründə H.Cavidin dramaturgiyası" məqalələrinə ayrıca yer vermişəm. Mənzum dramaların tarixini işlərkən Əli Sultanlının antik yunan və Roma ədəbiyyatına aid çap etdirdiyi əsərlərdən istifadə etmişəm. H.Cavid haqqında topladığım xatirə və məqalələri 1982-ci ildə (təkrar nəşri 2012) çap etdirərkən ora Əli Sultanlının "Hüseyn Cavidin faciələri" məqaləsini daxil etmişəm.

Əli Sultanlının zəngin şəxsi arxivi olmuşdur. Həmin arxiv materialları hazırda Əlyazmalar İnstitutunda və Nizami adına Ədəbiyyat İnstitutunun arxivində mühafizə olunur. Onun arxivlərdə saxlanan əlyazmaları və başqa şəxsi arxiv materialları, xüsusilə bədii irsi tədqiqatçılarını gözləyir.

Əlaqə tel.: (+99451) 877 46 69

Kredo.- 2018.- 10 may.- S. 7.